HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 yanvar 2016-ci il
№0015 (15)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## AZƏRBAYCANIN XALQ ŞAİRİ ZƏLİMXAN YAQUB VƏFAT EDİB



Azərbaycan ədəbi ictimaiyyətinə böyük itki üz verib. Milyonlarla insanın qəlbində şeirləri ilə özünə heykəl quran xalq şairi Zəlimxan Yaqub vəfat edib.

Xalq şairi ilə vida mərasimi yanvarın 11-də saat 12.00-dən 14.00-dək Təzəpir məscidində keçirilib. Zəlimxan Yaqubun vida mərasimində Azərbaycan prezidenti İlham Əliyev və digər dövlət və hökumət nümayəndələri də iştirak ediblər.

Xatırladaq ki, şairin vəfatı ilə bağlı yüksək səviyyədə rəsmi nekroloq imzalanaraq, KİV-də dərc olunub.

Zəlimxan Yaqub 1950-ci il yanvarın 21-də Borçalının Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. 2005-ci ildə "Azərbaycanın xalq şairi" fəxri adına layiq görülən Zəlimxan Yaqub Məmməd Araz ədəbi mükafatı, "Şöhrət" ordeni və Gürcüstan Respublikasının "Şərəf" ordeni kimi bir sıra yüksək mükafatlara layiq görülüb. 1995-2005-ci illərdə Milli Məclisinin deputatı olub. 2008-ci il avqust ayının 29-da Azərbaycan Aşıqlar Birliyinin sədri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvü olub.

Xalq şairi Zəlimxan Yaqub yanvarın 11-də Birinci Fəxri Xiyabanda dəfn olunub.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının kollektivi və “Yeni Yol” qəzetinin əməkdaşları olaraq biz də xalq şairi Zəlimxan Yaqubun vəfatından kədərləndiyimizi bildirir, şairin doğmalarına və yaxınlarına Allahdan səbr diləyirik.

Allah Rəhmət eləsin!

## GÜRCÜSTANIN BAŞ NAZİRİ SOCAR NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDÜ



Yanvarın 13-də Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili “SOCAR” şirkətinin nümayəndələri ilə görüşüb.

Hökumət administrasiyasının binasında keçirilən görüşdə Gürcüstan tərəfdən baş nazir Giorgi Kvirikaşvili ilə yanaşı energetika naziri, baş nazirin müavini Kaxa Kaladze və nazir müavini Mariam Valişvili, Azərbaycan tərəfdən isə “SOCAR” şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin törəmə müəssisəsi olan “SOCAR Georgia”nın direktoru Mahir Məmmədov iştirak ediblər.

Görüş bağlı qapılar arxasında keçirildiyindən, onun detalları barədə məlumat verilməyib. Güman edilir ki, görüşün əsas müzakirə mövzusu Gürcüstanın qazla təmin edilməsi məsələsi olub.

## TÜRKİYƏDƏ DƏHŞƏTLİ TERROR AKTI TÖRƏDİLİB

İstanbulda yanvarın 12-də baş verən partlayış zamanı 10 nəfər həlak olub, 15 nəfər isə xəsarət alıb. Terror aktını İŞİD üzvü olan kamikadzenin həyata keçirdiyi məlum olub. Terror aktından sonra əhalinin sıx olduğu ərazilərdə təhlükəsizlik tədbirləri gücləndirilib. Terror qruplaşmaları ilə əlaqəsi olduğu güman edilən şəxslərə qarşı xüsusi əməliyyat düzənlənib.

Türkiyə hüquq-mühafizə orqanları İstanbul terrorundan sonra İŞİD-lə əlaqəsi olan 3 Rusiya vətəndaşını da saxlayıb.

Rusiya KİV-nin yaydığı xəbərə görə, onlar Antalya şəhərində həbs olunublar. Onların üzərindən komapkt disklər və İŞİD-lə bağlı sənədlər aşkarlanıb.

Bundan öncə, Ankarada keçirilən xüsusi əməliyyat zamanı 16 nəfər, o cümlədən 15 suriyalı İŞİD-lə bağlılığa görə saxlanılıb.



## AVROPA CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏ MÜLKİ AVİASİYANIN İNKİŞAFINA KÖMƏK EDƏCƏK



Aviasiya Təhlükəsizliyi üzrə Avropa Agentliyi (EASA) Gürcüstanın mülki aviasiyasının inkişafına yardım edəcək. Bu barədə məlumat agentliyin veb-saytında dərc olunub. Yayılmış məlumata görə, EASA Avropa Komissiyasından 5,4 milyon dollar alıb.

Bu məbləğin Şərqi Avropanın və Mərkəzi Asiyanın bir sıra ölkələrində, o cümlədən də Azərbaycan, Gürcüstan və Ermənistanın mülki aviasiyasının beynəlxalq standartlara uyğun olaraq sabit inkişafına xərclənməsi gözlənilir.

Layihədə Cənubi Qafqaz ölkələri ilə yanaşı Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Moldovanın da mülki aviasiyasının inkişafına yardım edilməsi nəzərdə tutulur.

2016-cı ilin fevralından fəaliyyətə başlayacaq layihə növbəti dörd il ərzində həyata keçiriləcək.

Layihə çərçivəsində treninqlərin keçirilməsi, mülki aviasiyanın idarə olunması və təhlükəsizliyi menecmentinin inkişafı, mövcud aviasiya razılaşmalarının gerçəkləşdirilməsinin dəstəklənməsi, təhlükəsizliyin beynəlxalq standartlar üzrə işləməsi həyata keçirilməlidir.

## GÜRCÜSTANDA İLK TEXNOLOJİ PARKIN AÇILIŞI OLUB



Yanvarın 11-də Tbilisinin Okrokana qəsəbəsində Gürcüstanda ilk texnoloji parkın açılışı olub. Texnoпарkı Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və iqtisadiyyat və sabit inkişaf naziri Dmitri Kumsişvili açıblar. Tədbirdə Gürcüstan hökumətinin üzvləri, diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Dimitri Kumsişvili tədbir iştirakçılarını texnoloji park konsepsiyası ilə tanış edib.

Gürcüstanın ilk texnoloji parkı iqtisadiyyat və sabit inkişaf nazirliyinin İnnovasiyalar və Texnologiyalar Agentliyi tərəfindən tikilib. İnnovasiyalar və texnologiyalar istiqamətində vahid ekosistem yaradan texnopark innovasiya ideyalarının inkişafına kömək edəcək.

Texnoloji park yeni fəaliyyətə başlayan və kiçik şirkətlərə bu vaxta qədər onlar üçün əlçatmaz olan resurslar təklif edir. Park yeni biznesin və yeni şirkətlərin yaranmasında, mövcud biznesin inkişafında, innovasiyaların kommersiyalaşdırılması və yüksək ödənişli iş yerlərinin açılılmasında mühüm rol oynayacaq.

GÜNDƏMİ SİLKƏLƏYƏN XƏBƏRLƏRƏ ÖTƏRİ BİR BAXIŞ — 2

TELEVİZİYANIN FƏRDLƏRƏ ZƏRƏRLƏRİ — 3

YALTAQLIQ – ÇIXILMAZLIĞIN ÇARƏSİ DONUNDA — 4

KOLLEKTİVİN SEVİMLİSİ OLMAĞI BACARAN MANANA — 5

BİR OLAQ – BİRLİK OLAQ — 6

ELM ADAMLARI SIXINTILARLA BOĞUŞARKƏN, İDMANÇILAR MİLYONLAR QAZANIR — 7

YUNESKO 2016-CI İLİ ŞOTA RUSTAVELİNİN YUBİLEY İLİ ELAN EDİB — 8



Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

## *GÜNDƏMİ SİLKƏLƏYƏN XƏBƏRLƏRƏ ÖTƏRİ BİR BAXIŞ*

**Heç özüm də bilmirəm hardan başlayım, nədən başlayım, qalmışam odla su arasında. Iki tərəfə baxanın çaşı ola biləcəyi məsəli də heç beynimdən çıxmadığından mən bir şeyin qulpundan yapışıb, ürəyimə yaxın bir mövzu barədə az-çox nəsə söyləmək qərarını verməliyəm. Və bu arada özümü də qınadım ki, ey dili-qafil, özünü niyə dağa-daşa salırsan. Əlini haraya atsan mövzu deyilmi? Yapış birinin qulağından yaz ki, yazasan. Burada Allah saxlasın nə var?**

Öncə soyuqlarla bağlı bir hava üstündə köklənməyi düşünsəm də, bu fikrimdən daşınmalı oldum. Nədənini söyləyim ki, bu mövzuda bir-iki kəlmə yazmaqla camaatın dərdinin üstünə bir dərd də mən qoymayım fikri məni bu istəyimdən daşındırdı. Qışın oğlan çağında insanın canını qızdırmaq üçün nə qədər xərc çəkməli olduğunu yadıma salıb, bu mövzudan yazmamaq qərarını verdim. Həm də mövzunun siyasi gündəmdə bomba effekti yarada biləcəyini düşünüb, bu mövzunun bir daş altına, bir daş da üstünə qoymağın daha doğru olduğu qənaətindəyəm. Nədən ki, biz adi adamlarıq, nəyimizə lazımdır ki, sağ olmuş hökumətimiz qazı kimdən alır, neçəyə alır. Azərbaycandanmı almaq düşərlidir, İrandanmı, yoxsa Rusiyadanmı? Bu qərarı çıxarmaqda biz səlahiyyətli adamlar deyilik axı? Bir də adama deməzlərmi, ay nankor, qazın yanır, canın qızır, bəs qarınına nə ağrı dolub ki, hökumətin işinə qarışıb, hələ bir ağıl da vermək istəyirsən ki, ay hökumət, sən qaz söhbətini niyə qazlayırsan. Düşündüm ki, Yeni İl mövzusu hələ gündəmdən düşmədiyindən, bir-iki fikir söyləsəm nəyimə yetmir. Yenə də olmadı. Dedim indi də məni mövzu təkrarçılığında qınayıb, daşqalaq edərlər, yaxamdan tutub deməzlərmi, ay belə-filan, Yeni İl qayğılarından canımızı güclə qurtarmışıq, hələ bayramın ətalətindən çıxmamışıq, nə sən Yeni İl deyib, yaramızın qaysağını qoparırsan. Yeni il süfrəsi bir yana, gedənin-gələnin ayağının altında itmək də cəhənnəm, adamı yandırıb tökən bilirsən nədir? – O partdağana-purtdağana, fişəngə-mişəngə sanadığımız pullar. Biri də durub deməzmi ki, ay dərdin alım, bunları toyda-nişanda havaya buraxanda niyə yazmırdın, indi yazası oldun?

Bir ara düşünüb-daşındım ki, hazırca mövzudur, götürüb, siqaretin bahalanmasından yazım. Düzü bu qərarımdan özümün də zəhləm getdi. Avropaya üz tutduğumuz bir məqamda siqaretin bahalanması əcəb oldu, heç olmasa Avropaya bahalı tütün sümürüb getmək daha uyğun bir zad olar düşüncəsi ilə bu mövzuya da bir quş qoymalı oldum. Elə lap gözəl oldu bu siqaretin qiymətlərinin qalxması. Nədən ki, adamın nə cibində sikkə qoyur qalsın, nə də canında can. Indi də bahalanıb, cəhənnəmə-gora bahalansın, çəkənlər dərdə qalsın. Bu tütün zəhrimar əppək deyil, su deyil, bahalana-bahalana da dursun.

**Bu abzası Allahın adını çağırıb istəyirəm get-gedə qızışan, əndazədən çıxan və dinimizi hörmətdən salan məzhəb çatışmalarına həsr edəm. Bilmirəm yerinə düşəcək, ya yox. Yerinə düşməsə mənə bildirin, ünvanımı ki, bilirsiniz. Elə sözarası bir umu-küsümü də deyim ki, siz bizimlə əlaqə saxlamırsınız, bir fikir bildirmirsiniz. Biz də düşünürük ki, ya yazdıqlarımız ürəyinizcədir, o üzdən sizdən bir səs-soraq çıxmır, ya da əksinə, yazdıqlarımızdan ağlınız bir şey kəsmir. Hə, orda qalmışdım ki, bu məzhəb çatışmaları bizi aləmdə biabır etməkdədir. Səudiyyə Ərəbistanı ilə İran arasında baş qaldıran siyasi qalmaqalların siyasi çatışmalara çevrilməyəcəyi söylənsə də, yenə adamın ürəyi durmur və soruşmaq istəyir ki, cənablar, buna hacət varmı? Niyə düşmənlərimizi bizə güldürürsünüz? Indi Səudiyyə də, İran da deyək ki, yepyekə dövlətlərdir, onların öz dövlət maraqları var və bu maraqlarını məzhəb ayrılığı üzərindən təmin etmək istəyirlər. Tarix boyu ayrı-ayrı dövlətlərin bu siyasi metoddan istifadə etdikləri bəllidir. Bəs bizim Soğanlıqda iki dostun, bəlkə də iki qohumun məzhəb ayrılığı üstündə bıçağa əl atmaları və cavan bir gəncimizin qətlinə nə ad verək? Düzünü deyim ki, bu sualın cavabı yenə də məni dilemma qarşısında qoydu, fikrim yüz yerə haçalandı. Və bu sualın cavabını tapmaqda mənə kömək edə biləcəyiniz ümidilə yazımın son nöqtəsini qoymağın daha doğru bir seçim olduğunu düşünürəm.**

## QARDABANİDƏ YERLİ SEÇKİLƏRDƏ "GÜRCÜ ARZUSU" VƏ "VAHİD MİLLİ HƏRƏKAT" MÜBARİZƏ APARACAQ

Qardabanidə yanvarın 28-nə təyin olunmuş növbədənkənar qamqebeli (yerli administrasiyanın başçısı) seçkilərində yalnız iki – hakim "Gürcü arzusu" koalisiyasının və müxalif "Vahid Milli hərəkat" partiyasının namizədi iştirak edəcək.

Hakim koalisiya namizəd kimi Gürcüstan milli yığmasının keçmiş üzvü, keçmiş futbolçu, əslən Qardabanidən olan Qoça Camaraulini təqdim edib.

Tərəfimizdən qeyd edək ki, yanvarın 5-də Qoça Camaraulinin Qardabani rayon ictimaiyyətinin nümayəndələri və "Gürcü arzusu" koalisiyasının rayon fəalları ilə görüşü də keçirilib. Bu görüşdə Camaraulini görüş iştirakçılarına Gürcüstanın energetika naziri Kaxaber Kaladze təqdim edib.

Onun rəqibi "Vahid Milli Hərəkat"ın nümayəndəsi Besik Kaxabrişvili olacaq. Kaxabrişvili keçmiş hakim partiyanın nümayəndəsi kimi qamqebeli vəzifəsi uğrunda və 2014-cü ildə yerli seçkilərdə mübarizə aparsa da, 27,86% səs toplaya bilmişdir ki, bu da qələbə üçün kifayət etməmişdir.

2014-cü ildə qamqebeli "Gürcü arzusu"ndan Qela Nioradze seçilmiş, lakin o, 2015-ci ilin noyabrın sonlarında vəfat etdiyindən, dekabr ayında Qardabani bələdiyyəsində növbədənkənar qamqebeli seçkiləri təyin edilib.

28 yanvar seçkilərinə cəmi üç namizəd qeydiyyatdan keçsə də, İrakli Alasaniyanın "Azad demokratlar"ı öz namizədini irəli sürməmişdir.

Artıq namizədlərin qeydiyyatı başa çatıb. Bu isə o deməkdir ki, Qardabani bələdiyyəsinin 71 968 seçicisi keçmiş və indiki hakimiyyətin nümayəndələri arasında seçim etməli olacaq. Qələbə üçün seçkilərin birinci turunda namizədin səslərin 50%-dən çoxunu toplaması gərəkdir. Qamqebeli həmin bələdiyyənin qalan səlahiyyət müddətinə seçilir. Fəaliyyətdə olan yerli idarəetmə orqanlarının səlahiyyəti 2017-ci ilin oktyabrında başa çatır.

## AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRƏ YENİ DƏRSLİKLƏR TƏQDİM EDİLƏCƏK

Yanvarın 12-də Azərbaycanın Gürcüstandakı səfirliyinin vasitəçiliyi ilə Azərbaycan Təhsil nazirliyi tərəfindən 2015-2016-cı tədris ili üçün Gürcüstanda fəaliyyət göstərən Azərbaycandilli məktəblərin IV, V, VI və VIII sinifləri üçün dərsliklər Gürcüstanın elm və təhsil nazirliyinə təqdim ediləcək.

Azərbaycan səfirliyindən APA-nın Gürcüstan bürosuna verilən məlumata görə, səfirlik və KİV nümayəndələrinin iştirakı ilə Gürcüstan elm və təhsil nazirliyinə 12 adda 9810 nüsxə dərslik təhvil veriləcək və sonra nazirliyin hazırladığı siyahı ilə Azərbaycandilli məktəblərə paylanılacaq. Məlumatda bildirilib ki, gətirilən kitabların içərisində azərbaycanlı şagirdlər üçün "Azərbaycan dili", "Ədəbiyyat" dərslikləri və müəllimlər üçün metodik vəsaitlər var.




Səfirlikdən bildirilib ki, son iki ildə Gürcüstanın Azərbaycandilli məktəbləri üçün 47105 ədəd "Azərbaycan dili", "Ədəbiyyat" fənləri üzrə dərsliklər və müəllimlər üçün metodik vəsaitlər səfirliyin vasitəsi ilə Gürcüstanın elm və təhsil nazirliyinə təhvil verilib.

## 2015-Cİ İLDƏ NƏZƏRLİ KƏNDİNDƏ 1155 METR YOL ABADLAŞDIRILIB



2015-ci ildə Qardabani bələdiyyəsinin ümumi yerli büdcəsindən ayrılan vəsait hesabına rayonun Nəzərli kəndində küçələrin abadlaşdırılması həyata keçirilib.

Əməkdaşımızın Qardabani qamqebelisinin Nəzərli kəndi üzrə nümayəndəsi Dünyamalı Hacıyevdən aldığı məlumata görə, 2015-ci ildə Nəzərlidə 3 küçənin abadlaşdırılması başa çatdırılıb. Bu küçələrdən biri kəndin köhnə hissəsində, digər ikisi isə təzə məhəllələrdən keçir. Ümumilikdə 1155 metr uzunluqda yola çınqıl döşənib. Payız-qış aylarında palçıqdan, yaz-yay aylarında isə tozdan əziyyət çəkən yeni məhəllələrin sakinləri kəndin bu ərazisində yolların abadlaşdırılmasını sevinclə qarşılayıblar.

Dünyamalı Hacıyevin məlumatına görə, 2015-ci ildə "Kəndin tərəfdarı" proqramı çərçivəsində kənddə ikimərtəbəli uşaq baxçasının binası Qardabani bələdiyyəsinin balansına götürülmüş və binada təmir işlərinə başlanmışdır. Uşaq baxçasında təmir-bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb. Binanın dam örtüyü tamamilə yenilənib, su sistemi əsaslı şəkildə bərpa edilib, müasir standartlara cavab verən qapı və pəncərələr quraşdırılıb.

Onun sözlərinə görə, yaxınlarda uşaq baxçasında təmir işlərinin bərpasının ikinci mərhələsi start veriləcək. Dünyamalı Hacıyev artıq ikinci mərhələnin ümumi dəyəri 150 min lari olan smetasının hazır olduğunu, uşaq baxçasının təmirinin 2016-cı ilin sentyabrında başa çatacağını və qapılarını azyaşlı Nəzərli sakinlərinin üzünə açacağını bildirdi.

"Yeni YOL"

## YENİLƏŞDİRİLMİŞ ƏSKİNASLAR FEVRALDAN DÖVRİYYƏYƏ BURAXILACAQ

Yeniləşdirilmiş 20, 50 və 100 larilik əskinaslar mərhələlərlə fevraldan dövriyyəyə buraxılacaq və köhnə əskinaslarla bərabər dövriyyədə olacaq.

Milli bankın prezidenti Georgi Kadaqidze bildirib ki, 20, 50 və 100 larilik banknotların tərtibatçısı Baço Malazoniyadır, lakin eskizlərin təkmilləşdirilməsində Giesecke & Devrient (Almaniya), Oberthur Fiduciaire (Fransa) və De La Rue (İngiltərə) kimi dünyanın aparıcı şirkətləri də iştirak ediblər.

Georgi Kadaqidze məlumat verib ki, daha sonra 5 və 10 larilik əskinasların da yeniləşdirilməsinə başlanacaq.

## TELEVİZİYANIN FƏRDLƏRƏ ZƏRƏRLƏRİ

Kütləvi informasiya vasitələrindən ən əhəmiyyətlisi olan televiziya, şübhəsiz 20-ci əsrin ən böyük icadlarından biridir. Çağın inkişafında böyük rola malik olduğunu, faydalarını gözdən qaçırmamaq lazımdır. Lakin bizdən alıb apardıqlarını da görməməzlikdən gələ bilmərik. Neçəmiz, həyatımızda televizya qarşısında keçən saatlarımızı hesablamışıq? Məsələn, gündə 2 saatımızın televiziya başında keçdiyini fərz edək. Yəni bu, bir ildə 730 saat deməkdir. Bu da 45 gün və 45 gecə edər ki, bu da bir gerçəkdir; bir çoxumuz gündə 2 saatla da kifayətlənmirik.



Televiziyanın fərdlərə zərərlərini, qısa şəkildə təktək sıralayaq:

1. Televizya qarşısında böyüyən uşaqların ictimailəşmə, fərdiləşmə və psixososial iqamətlərinin hamısı əskik qalır. Romantik, maraq, əlaqə, sevgi və birlikdə keçiriləcək vaxt yerinə, uşağın televiziya qarşısında qalması çox təhlükəli bir vəziyyətdir.

2. Maqazin proqramı adı altında telekanallar səviyyəsiz əyləncə mədəniyyəti təbliğ edir.

3. Dörd-yeddi yaş arası uşaqlarda tv-nin çoxçox izlənilməsi, uşağın dil və ictimai inkişafında bəzi çətinliklərin meydana gəlməsinə səbəb olur. Uşaq bu dövrdə, tv-də gördüyü görünüşləri tamamilə konkret olaraq şərh edir. Məsələn, bir cizgi filmdə gördüyü səhnəni özü də etməyə çalışa bilər. Ayrıca uşaqların bu dövrdə izləyəcəyi qorxu, gərginlik ya da həddindən artıq şiddət ehtiva edən görünüşlərdən həddindən artıq dərəcədə təsirlənə, qorxa bilər və bunun nəticəsində uşaqda yuxusuzluq kimi problemlər baş göstərə bilər.

4. Bir çox proqram insanları gerçəklərdən qoparır.

5. Televizyada nümayiş etdirilən reklamlar, yalnız qazanc məqsədi güddüyündən bir çox dəyərləri tapdalayır.

6. Reytinq naminə bir çox səhv, doğru kimi göstərilir.

7. Bir çox tv kanalında şiddət görünüşləri artıq adi hala gəlib. Televiziya şiddətə meylli fərdlərin yetişməsinə vəsilə olur.

8. Televizya kanalları əksəriyyətlə başqa mədəniyyətləri etina etdirir.

9. Teleekranda xoş görünən, lakin gerçəkdə əxlaq pozğunluğu, şiddət kimi elementləri vurğulayan davranışları ön plana çıxaran çox-çox proqram və teleseriallar vardır.

10. Televizya insanları tənbəlləşdirir. Gündə 4 saatdan çox televiziya izləyən uşaqların çəkisi həddindən artıq çox olur.

11. Dərslərini oxumaq yerinə televiziyadakı proqramlara, cizgi filmlərinə baxaraq məlumatlanmağa, öyrənməyə çalışmaq, oxuma mədəniyyətini öldürür.

12. Televiziyaya bağlı olaraq yaşamaq, çox ciddi bir problemdir. Məsələn, televiziyaya çox bağlı olan insanlar zamanla ayaqlaşa bilmirlər.

13. Tez-tez televiziya izləmək enerji itkisinə səbəb olur.

14. Teleseriallarin ictimai və ailə fərdləri arasında pis nümunələr sərgiləməsi də qorxunc fakt-lar doğura bilir.

Televiziyanın bunlara bənzər daha bir çox zərərli təsirini saya bilərik. Ən gözəli özümüzü çox qapdırmamaq və mümkün olduqca televiziyadan müsbət bir şəkildə faydalanmaqdır.

Elsevər ELDAROĞLU

## İVANİŞVİLİ 2017-Cİ İLİN GÜRCÜSTANDA DİRÇƏLİŞ İLİ OLACAĞINI BƏYAN EDİB

Gürcüstanın eks-baş naziri, "Gürcü arzusu" koalisiyasının yaradıcısı Bidzina İvanişvili milli valyutanın inflyasiyasını regional problemlərlə və Milli Bankın ardıcıl olmayan fəaliyyəti ilə əlaqələndirib.

Ümumilikdə isə keçmiş hökumət başçısı əvvəlki kimi nikbin əhvali-ruhiyyədədir.

"2016-cı il mürəkkəb il olacaq, lakin ümidvaram, 2017-ci ildə dirçəliş baş verəcək, sizi əmin edirəm ki, Gürcüstan lider olacaq", – İvanişvili gürcü telekanallarından birinə müsahibəsində bəyan edib.

Keçmiş baş nazir özünün verdiyi vədi də xatırlayıb ki, hakim kolisiyanın hakimiyyətinin dördüncü ili "ən yaxşı" il olacaq.

Onun sözlərinə görə, o vaxt belə bəyanat verməyə bütün əsasları var idi, belə ki, ölkə hakimiyyəti xarici sərmayənin cəlb olunması üçün yaxşı şərait yaratmışdır.

"Biznes azaddır, "millilər"in tənqidinə baxmayaraq, cinayətin səviyyəsi durmadan aşağı düşür.

Əlbəttə, qanunvericiliyi təkmilləşdirmək lazımdır, bu daimi bir prosesdir. Hökumət prioritet istiqamətləri düzgün maliyyələşdirməyə çalışır. Bizim komanda oyunun elə qaydasını yaradıb ki, bu, digər ölkələrdə də özünü doğruldub. Məhz bu, mənə əsas verirdi ki, Gürcüstan iqtisadiyyatının uğurla inkişaf edəcəyini söyləyim", – İvanişvili qeyd edib.

## MSK DAİRƏ SEÇKİ KOMİSSİYALARINDA KADRLARI YENİLƏYİR

MSK-nın mətbuat xidmətinin məlumatında bildirilir ki, Gürcüstan Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarındakı 193 vakant yerə kadrların seçilməsi üzrə müsabiqə elan edir.

Bu vakant yerlər dairə komissiyalarının keçmiş üzvlərinin beşillik fəaliyyət müddəti başa çatdıqdan sonra yaranıb. Bu vəzifələrə 771 nəfər iddia edir.

"Seçkinin gedişini müşahidə etmək istəyən təşkilatlar Gürcüstan qanunvericiliyinə əsasən qeyri-kommersiya hüquqi şəxslər kimi qeydiyyatdan keçməlidirlər, onların bu müsabiqə elan olunanadək sonuncu ümumi seçkiləri müşahidə etmək təcrübəsi olmalıdır", – məlumatda bildirilir.

Yuxarıda göstərilən təşkilatlar bunun üçün yanvarın 18-dək müsabiqə komissiyasının katibliyinə yazılı şəkildə müraciət etməlidirlər.

Gürcüstanda ümumilikdə 73 dairə komissiyası fəaliyyət göstərir.

## GÜRCÜSTAN 2016-CI İLDƏ YERALTI QAZ ANBARI YARATMAĞI DÜŞÜNÜR

Gürcüstannın energetika naziri Kaxa Kaladze yanvarın 8-də bəyan edib ki, 2016-cı ildə Gürcüstanın energetika nazirliyi yeraltı qaz anbarı layihəsini həyata keçirməyi planlaşdırır.

"Yeraltı qaz anbarı layihəsi xüsusilə vacibdir. Biz 2016-cı ildə bu layihəni həyata keçirməyə başlamağı nəzərdə tuturuq. Araşdırmalar aparılır, layihənin ümumi dəyəri təxminən 230-250 milyon dollardır. Bu, bizim üçün olduqca lazımlıdır. Bütün ölkələr belə qaz anbarlarının olmasına çalışırlar, biz də bu layihənin həyata keçirilməsinə bu il başlayırıq", – Kaxa Kaladze bəyan edib.

## KAXA KALADZENİN "QAZPROM" RƏHBƏRLİYİ İLƏ DAHA BİR GİZLİ GÖRÜŞÜ OLUB

Gürcüstanın energetika nazirliyinin başçısı Kaxa Kaladzenin "Qazprom"un nümayəndəsilə daha bir gizli görüşü barədə məlumat yayılıb. "Qruziya Online" saytının verdiyi xəbərə görə, bu barədə gürcü ekspert Soso Siskarişvili bildirib. Onun sözlərinə görə, Gürcüstan 50% Azərbaycan qazını Rusiya qazı ilə əvəz etmək niyyətindədir.

Siskarişvili məlumat yayıb ki, Kaxa Kaladze "Qazprom-Eksport"un rəhbəri Yelena Burmistrova ilə dekabrın 27-də İsveçrədə görüşüb. Siskarişvili güman edir ki, hakimiyyət Azərbaycan qazını Rusiya qazı ilə əvəzləmək niyyətindədir. Onun məlumatına görə, müqavilənin şərtlərini hazırlayacaq dövlət qurumu Beynəlxalq Neft və Qaz Korporasiyası olmalıdır. Bu qurum isə Bidzina İvanişvilinin yaratdığı "Tərəfdaşlıq fondu"nun nəzarətindədir.

Fondun başçısı David Saqanelidze bu məlumatı şərh etməyib. Kaladzenin Burmistrova ilə görüşü barədə xəbəri təsdiq edən Gürcüstan energetika nazirliyi, görüşün detalları barədə susmağa üstünlük verib.

## GÜRCÜSTANIN YÜKSƏK DAĞLIQ RAYONLARI GÜZƏŞT ƏLDƏ EDİR

Gürcüstanın dağlıq ərazilərində mövcud olan kəndlər haqqında qanun layihəsinə əsasən dəniz səviyyəsindən 800 metr və daha yüksək olan kəndlərin əhalisi sosial yardımlar alacaq və onlar üçün vergi ödənişləri güzəştli olacaq. Bu yeni qəbul olunmuş qanun layihəsinə əsasən bu siyahıya 1500 dən artıq kənd əlavə olunub.

2016-cı ilin 1 yanvarından "Yüksək dağlıq regionların inkişafı haqqında" qanun qüvvəyə minir. Qanuna görə, dağlıq bölgələrin sakinlərinə bir çox güzəştlər edilir. Yüksək dağlıq rayonlarda yaşayan ailələrə birinci və ikinci doğulan hər uşağa görə bir il ərzində hər ay 100 lari (42 dollar), üçüncü uşaqdan başlayaraq iki il müddətində ikiqat əlavələr ödənəcək.

Məktəblilər və tələbələr artırılmış vauçerlər alacaqlar. Bu vauçerlərin verilmə qaydası hökumətin qərarı ilə müəyyənlədiriləcək. Fiziki şəxslər gəlir və əmlak vergisindən azad edilirlər. Yüksək dağlıq məntəqələrdə işləyən sahibkarlar isə mənfəət və əmlak vergisindən azad olunurlar.

Bundan başqa güzəştin müəyyən hissəsi sentyabrın 1-dən qüvvəyə minəcək. Pensiyalara ən azı 20% əlavə olunacaq, istehlak olunmuş 100 kVt/s-dək elektrik enerjisinin əvəzi veriləcək, pedaqoqların baza əmək haqqı 35% artırılacaq, həkim və tibb bacıları üçün də əlavələr olacaq.

## GÜRCÜSTAN TƏRƏFİ AZƏRBAYCAN QAZININ VERİLMƏSİNDƏ FASİLƏLƏR OLDUĞUNU BƏYAN EDİB

Gürcüstan neft və qaz korporasiyasının baş direktoru David Tvalabeişvili bildirib ki, bir sıra hallarda SOCAR şirkəti fasiləsiz qaz verilməsini təmin etmir.

"Şahdənizdən əldə olunan qaz 30%-ə yaxındır, 50% qaz SOCAR-ın satdığıdır, 20% qaz isə Rusiya şirkətlərinin payına düşür. Qeyd etmək lazımdır ki, son vaxtlar Gürcüstanda qaza olan tələbat artıb. Bəzən SOCAR-ın verdiyi qazla bağlı fasilələr müşahidə olunur. Buna görə də, bir sıra hallarda biz balansı Rusiya qazının hesabına tənzimləməyə məcburuq", – Tvalabeişvili deyib.

Xatırladaq ki, Azərbaycan prezidenti keçən ilin noyabrında Gürcüstana səfəri çərçivəsində bəyan etmişdi ki, onun ölkəsi hətta yüz il sonra da qonşu dövlətləri və Avropa ölkələrini təbii qazla təmin edə biləcək qaz ehtiyatına malikdir.

David Tvalabeişvilinin bu bəyanatına Azərbaycan tərəfinin cavabı özünü çox da gözlətməyib. Belə ki, SOCAR-ın Gürcüstandakı törəmə şirkəti "SOCAR Energy Georgia" Gürcüstanın Neft və Qaz Korporasiyasının SOCAR-ın bu ölkəni qazla fasiləsiz təmin edə bilməməsi ilə bağlı açıqlamasına münasibət bildirib.

Şirkətin baş direktoru Mahir Məmmədov bildirib ki, qaz təchizatında texniki fasilələrin yaranması normal haldır, lakin son günlər belə bir problem müşahidə olunmayıb. "Biz David Tvalabeişvili ilə mütəmadi əlaqədəyik. Hazırda biz Gürcüstanın qaza olan tələbatını təmin edirik. Bu günlərdə Gürcüstanın qaz təchizatı ilə bağlı heç bir problem yaşanmayıb. Cənab Tvalabeişvilinin nəyi nəzərdə tutduğunu deyə bilmərəm", – Mahir Məmmədov əlavə edib.

## GÜRCÜSTAN FERMERLƏRİ HÖKKUMƏTDƏN KÖMƏK ALACAQLAR

Gürcüstan kənd təsərrüfatı nazirliyinin məlumatına görə, Gürcüstan hökuməti 2016-cı ildə də "Aztorpaqlı fermerlərin yaz işlərinin aparılmasına kömək üzrə layihə"ni davam etdirmək qərarına gəlib.

Gürcüstan kənd təsərrüfatı nazirliyindən bildirilib ki, layihə çərçivəsində 0,25 ha torpaq sahibi olan fermerlər 50 larilik aqrokartlardan istifadə edəcəklər.

Layihəyə əsasən 0,25 hektardan 1,25 hektara qədər torpaq sahəsi olan və çoxillik əkin işləri aparan kəndlilər bir hektara görə, kənd təsərrüfatı təyinatlı mal və inventar almaq üçün 140 larilik aqrokartlar alacaqlar.

2013-2015-ci illərdə kəndlilər 306 milyon lari həcmində yardım alıblar. Layihənin fəaliyyət göstərdiyi üç il ərzində Gürcüstanda 600 min hektardan çox torpaq əkilib, təkcə 2015-ci ildə 767 019 fermer güzəştlərdən istifadə edə bilib. Dövlət onlardan ötrü 46 milyon lari ayırıb. Ilin əvvəlindən layihə çərçivəsində 215,9 min hektar torpaq sahəsi əkilib.

# YALTAQLIQ – ÇIXILMAZLIĞIN ÇARƏSİ DONUNDA

*"Hər qoyun öz ayağından asılar" – deyimini yəqin ki, duymamışımız olmaz. Hamımız bu sözləri eşitmiş və söyləşmişik. Bu gün hər bir insan öz gününü görüb, ya da görməyib, bu və ya digər şəkildə öz dövranını sürməkdədir. İnsanlar özlərinə onlarla səbəbin nəticəsi, eyni zamanda bəhrəsi olan həyat tərzi biçirlər. Bu həyat tərzi isə sizin də anlamış olduğunuz kimi, heç zaman, heç vəchlə eyni cür deyil. Məhz bunun nəticəsidir ki, aramızda irili-xırdalı fikir ayrılığı yaranır, bir-birimizin, qonşumuzun, qohumumuzun, televiziyada izlədiyimiz filankəsin fikirləri və hərəkətləri bizə xoş təsir bağışlamır.*

Lakin, əziz oxucu, bu məsələdə, bu günkü mövzu bəhsimdə mənimlə razılaşacağına heç şübhə etmirəm. Çünki, bu hal ən azı mənim qədər sənin də ürəyini bulandırmaqda, qanını qaraltmaqdadır. Hər nə qədər nəyimə gərəkdir, can onun cəhənnəm yaradanın deyib, vəziyyətdən uzaqlaşmağa çalışsaq da, ətrafda qayır-qayır qaynayan bu insanlar bir şəkildə diqqətimizi cəlb edir. Təsəvvür edirəm, indi fikrinizdə bir neçə versiya canlandı. Nə ola bilər deyə düşündünüz və bəzilərinizin ehtimalı mənimki ilə üst-üstə düşdü.

Yaltaqlıq və yaltaqlar...

Ətiniz ürpələndi deyilmi? İndi üz ifadənizi görər kimi oldum... Yaltaq insanlar, bəli, onlar. Görün nə qədərdirlər və ən kədərlisi də hər keçən gün bakteriya misalı bir az daha artırlar. Hər keçən gün daha da nəzərə çarpan olurlar. Onların bir açıqlaması da var: "neynəyim, işim ondan keçir". Ya da bunun bir az fərqli tərzini həmin şəxslərin ünvanına özümüz istifadə edirik: "neynəsin, işi ondan keçir." Bu işinin xətrinə adamlığını, kimliyini itirənlər əminəm ki, özlərindən bixəbərdirlər. Çünki, yaltaqlıq məsləyinə işimin xətrinə, onun xətrinə, bunun xətrinə deyə başlasalar da, sonradan bu xüsusiyyətin içinə nüfuz edirlər. Yaltaqlıq və indi biz danışdıqca qulaqları cingildəyən insanlar arasında diffuziya gerçəkləşir, nəhayətində hər şey adiləşir. Bu da, sıradan bir həyat tərzi olur.

Məsələnin qaranlıq qalmaması naminə bir-iki misal da gətirə bilərik, mötəbər oxucu ikicə saniyə gözlərini yum, ilk misal elə gözünün önündə canlanacaq. "Filankəs, ( filankəslərin adı isə sənə yaxşı tanışdır) üstü işıldayanların böyründə hərlənir" – deyirlər. Hələ bir az biədəb formada da söyləyirlər, mən üslubumu pozmaq istəmədiyimdən bu formadan istifadə etməli oldum.

Niyə bu qədər arzuolunmazdır onlar? – Çünki bütün pis keyfiyyətlər onlarda birləşir, ikiüzlülük, yalan, tamahkarlık, nəfsinə sahib ola bilməmək və s. Bu sıralamanı sabaha qədər uzatmaq olar, ancaq sabahları kirlətmək istəklərimin arasına daxil olmağıdı üçün burada dayanmalı oluram...

Cəmiyyət onlara yaralı fərdlər olaraq baxır. Bu isə gerçəyin özüdür. Onları virus da adlandırmaq olar. Yaltaq insanlar həyatda bir çox uğurlara imza atırlar. Elədir ki, var.

" Pulun yoxdur, nə olar ki? – Heç nə problem deyil. Ən əsası yaltaqlanmaq kimi bacarığın olmalıdır. Bu varsa, daha sənə ölüm yoxdur. Evin də olacaq, maşının da, bütün istəklərinə tez bir zamanda nail olacaqsan. Bütün madiyyatını təmin etmək sənin üçün su içimi kimi bir şey olacaq. Bəs son, bəs insanlığın? Burax başını insanlığın, nəğdini qoyub, nisyə arxasınca düşməyə nə gərək var indi".

Bu cür düşünənlər əslində bir tələnin qurbanıdırlar.Cəmiyyətimizin, ailəmizin, övladlarımızın, valideynlərimizin işıltılı torlara düşməsindən qorxulu heç nə yoxdur . Adətən bu mövzudan danışarkən söhbət ancaq gənclərə şamil edilir, lakin bu əsnada durum görünəndən daha ağırdır. Ucuz və parıltılı əyləncə, şou kimi tələlər, maddi gözəlliklər dənə-dənə hər bir ailənin, nəfər-nəfər hər bir insanın boynuna dolanır. Televiziyaların səviyyə və keyfiyyətlə uzaqdan-yaxından əlaqəsi olmayan proqramları və yayım siyasətləri, ikiüzlülüyün, hiyləgərliyin təbliğatı nəzərdə tutulan məqsədə kifayət qədər çatır. Bu proqramlar zəif iradəli və zəif düşüncəli insanların başına lazım olan corabı hörür. Elə bunun nəticəsi olaraq da, qarnının aclığını, başının ağrısını da unudub, hökumətdən, səni üzənlərdən, cibini düzləyənlərdən bir şey tələb etmirsən. Elə bu məqam nəfəs almağın yaşamaq olmadığını anlaya bilmədiyimiz məqamdır. Axı insan, vicandansız, boşboğaz, zalım, şərəfsiz və s. olmamalıdır. Yalan demirəm ki? –Yox demirəm. Bunlardan biri olmamaq üçün isə, savada, dünyagörüşünə sahib olmaq vacib şərtdir. Doğrudur, sözügedən amil yuxarıda sadalananların qarşısını almaq üçün mütləq səbəb deyil. Yenə də əsas səbəbdir. Savadlı insan cəmiyyətin xilası üçün ən böyük vasitələrdəndir, daha dəqiq deməli olsaq, savadlı və vicdanlı, yaltaq olamayan insan. Çünki, oxumuşun dəlisi ələ düşməz deyimi də havadan səsləndirilməyib. Bu meyarların insanın şəxsiyyət kimi formalaşmasında müstəsna xidməti var. Bu yollarla qazanılan adın kimsəni narahat etmədiyi gün kimi ortadadır.

**Hiylə ilə, yaltaqlıqla əldə edilən böyüklük içi boş köpüyə bənzəyir. Odur ki, ən azından arxanızdan yağdırılacaq lənəti göz önünə gətirin. Ən azından qəbirdəki atanızı söyüş hədəfinə döndərməyin... Bir yandan da düşünürəm ki, ay qızım, sənə nə, nə həddinə camaata ağıl verirsən, heç səni kimilərini adam yerinə saymır axı qəhrəmanların... Yenə də yazıram. Bu insanlardan təmizlənməmizi diləyirəm, istəyirəm. Bəlkə də uzun danışdım, dəyərli vaxtına haram qatdım, dəyərli oxucu, ancaq, necə deyərlər, bəzi nümunələr insanı yazmamağa qoymur. Bəzən həmin insanların sifətinə yetər deyə bağırmaq istəyirsən, o da olmur... Sağlıqla qal, dəyərli oxucu...**

## YENİ İLİN BAŞLAMASI İLƏ DÜNYA ƏHALİSİNİN SAYI 7,3 MİLYARDI KEÇDİ



Yeni ilin ilk günündə Yer kürəsində 7 295 889 256 əhali yaşayacaq. Bu barədə ABŞ Statistika Bürosu məlumat yayıb.

Bu ötən ilin eyni dövrü ilə müqayisədə 77 918 825 nəfər, yəni 1,08% artım deməkdir. 2100-cü ildə isə dünyada əhalinin sayı 10-11 milyardı ötəcəkdir.

Məlumatda o da bildirilir ki, 2016-cı il yanvarın 1-də ABŞ-da 322 milyon 762 min nəfər insan yaşayacaq.

Onu da əlavə edək ki, 2016-cı ilin başlaması ilə dünya əhalisinin sayı 7 milyard 391 milyona çatıb. ANS PRESS-in statistik mənbələrə istinadən verdiyi məlumata görə, 2016-cı ildə dünyada 126 000 körpə doğulub.

Bunlar, 01.01.2016-cı ilin başlamasından səhər saat 8-ə qədər olan rəqəmlərdir və bu göstəricilər mütəmadi olaraq dəyişilir.

## 2015-Cİ İLDƏ 69 JURNALİST ÖLDÜRÜLÜB

Jurnalistlərin Müdafiəsi Komitəsinin hesabatında deyilir ki, 2015-ci ildə dünyada 69 jurnalist peşə fəaliyyəti zamanı həlak olub.

Onlardan 28 nəfəri (40%-i) İslam ekstremistləri tərəfindən öldürülüb. 2014-cü ildə isə siyahıda 61 jurnalist vardı. Bildirilir ki, 2015-ci ildə öldürülümüş jurnalistlərin sayı arta bilər, çünki 26 jurnalistin qətli üzrə araşdırmalar hələ başa çatmayıb.

Beynəlxalq Jurnalistlər Federasiyasının saytında belə deyilir: "Bu peşə üçün "dinc" ölkə yoxdur. 2015-ci ildə jurnalist ölümlərinin ənənəvi xəritəsi də bir qədər dəyişib. "Charlie Hebdo" satirik jurnalına silahlı basqında 9 jurnalist öldürüldükdən sonra, Fransa jurnalist ölümlərinə görə cədvəldə ikinci yerə qalxıb. Birinci yerdə gedən Suriyada 13 jurnalist öldürülüb,hərçənd ötən illə müqayisədə bu ölkədə öldürülən jurnalistlərin sayı azalıb. Çünki, jurnalistlər İŞİD-in nəzarətindəki ərazidə xüsusi hədəfə alındıqlarından, artıq ora az gedirlər. 3-cü yeri 6 jurnalistlə Braziliya tutur. ABŞ və Türkiyə hər biri 2 jurnalistlə 10-11-ci yerləri bölüşdürür. Jurnalistlər üçün təhlükəli ölkələrin siyahısında Liviya, Yəmən və İraq da var.

## TÜRKİYƏ ƏSGƏRLƏRİNİN SAYINI AÇIQLADI

Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı 1 yanvar 2016-cı il tarixində türk silahlı qüvvələrində xidmət edən hərbçilərin və mülki personalın statistikasını açıqlayıb.

Baş Qərargahın internet səhifəsində yerləşdirilən məlumata əsasən, Türkiyə ordusunun tərkibində 624 004 hərbçi və mülki şəxs xidmət etməkdədir. Türkiyə Silahlı Qüvvələrində hazırda 39 min 782 zabit qulluq edir. Onların 358 nəfəri general və admirallardır. Sıravi əsgərlərin sayı 332 min 509 nəfər, mülki içşilərin sayı 51 min 681 nəfərdir.



## ƏRƏB LİQASI İRANI BEYNƏLXALQ RAZILAŞMALARI POZMAQDA İTTİHAM EDİB

Ərəb Liqası ölkələrinin xarici işlər nazirləri İranı "ərəb ölkələrinin işinə qarışdığına görə" pisləyib. Yanvarın 10-da Qahirədə keçirilən toplantıda nazirlər İranı beynəlxalq razılaşmaları pozmaqda, Tehranda Səudiyyə Ərəbistanının diplomatik postlarını qorumamaqda ittiham ediblər.

Əhalisi şiə olan, həm də yaraqlı Hizbullah təşkilatının yerləşdiyi Livan liqada fərqli münasibət sərgiləyən yeganə dövlət olub. Ancaq Liqanın qəbul etdiyi bəyanatda İrana qarşı cəza tədbirlərindən söz açılmayıb.

Səudiyyə Ərəbistanında tanınmış şiə ruhanisinin edamı İranın qəzəbinə səbəb olub, Tehrandakı Səudiyyə səfirliyi yandırılıb. Bundan sonra ər-Riyad Tehranla diplomatik münasibətləri pozub.

İranın Xarici işlər naziri Mohammad Cavad Zarif yanvarın 10-da Səudiyyəni Suriyaya dair sülh danışıqlarını pozmaq üçün mübahisəni dərinləşdirməkdə ittiham edib.

## 2015-Cİ İLDƏ ALMANİYAYA BİR MİLYONDAN ARTIQ QAÇQIN GƏLİB

Almaniya Federativ Respublikasının DİN-nin başçısı Tomas de Mezer bildirib ki, Almaniyaya gələn qaçqınların 40%-i Suriyadan, bir çoxu isə Əfqanıstan və İraqdan gələnlərdir.

Tomas de Mezer 2015-ci ildə ölkəsinə bir milyondan çox qaçqının gəldiyini təsdiqləyib.

Mətbuat konfransında çıxış edən Mezer bu məlumatın Easy-ın ilkin qeydiyyatının nəticələrinə əsaslandığını söyləyib.

Nazir Suriyadan gələn qaçqınların 40% təşkil etdiyini və Suriyanın bu sahədə birinci olduğunu vurğulayıb.

Bir qədər əvvəl Reuters agentliyi hakimiyyət dairələrinə istinad edərək, 2015-ci il ərzində sərhəd qeydiyyat sistemi olan Easy-nin 1,09 milyon qaçqın qeydə aldığı barədə məlumat yaymışdı.

Yalnız dekabr ayında Almaniyaya 127 300 nəfər qaçqının gəldiyi bildirilir.

## ZƏNGİNLƏR BİR HƏFTƏ ƏRZİNDƏ 194 MİLYARD DOLLAR İTİRDİLƏR

Bloomberg Business agentliyinin məlumatına görə, Çinin iqtisadi statistikasının zəifləməsi, neftin qiymətinin düşməsi və ABŞ-ın fond bazarının çökməsi fonunda biznesmenlərin var-dövləti azalıb.

Bloomberg agentliyinin milyarderlər indeksinə əsasən dünyanın 400 zəngin adamı 2016-cı ilin ilk ticarət həftəsi ərzində 194 milyard dollara yaxın sərvət itirib.

Belə ki, indeksin çoxillik lideri Microsoftun yaradıcısı Bill Qeyts sərvətinin 5,4%-ini və ya 4,5 milyard dollarını itirmiş, reytinqin ikincisi Inditex şirkətinin qurucusu Amansio Orteqanın itkisi isə 3,4 milyard dollar və ya 4,7% olmuşdur. Nəhəng telekommunikasiya şəbəkələrinə sahib olan meksikalı Karlos Slim sərvətinin 10,8%-ini itirib.

## ƏRDOĞAN RUSİYANIN GÜRCÜSTANA VƏ UKRAYNAYA TƏCAVÜZÜNDƏN BƏHS EDİB

"Qruziya-onlayn"ın məlumatına görə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyanın Suriyadakı hərbi mövcudluğunu kəskin tənqid edib.

"Rusiya deyir ki, onu ora Suriya hökuməti çağırıb. Axı indiki Suriya hökuməti legitim deyil", – o, qeyd edib.

"Onlar deyirlər: "BMT bizi legitim hesab edir". Hesab edə bilər, lakin siz hər çağırılan yerə getməyə borclu deyilsiniz. Siz nə vaxtsa Gürcüstana nə üçün təcavüz etdiniz? Çağırmışdılar, ona görəmi təcavüz etdiniz? Sizə Gürcüstanda nə lazım idi? Çağırmışdılar, ona görəmi Ukraynaya təcavüz etdiniz? Siz nəyə görə Ukraynaya təcavüz etdiniz?", – Ərdoğan sual edib.

Bundan əlavə o, bəyan edib ki, "Rusiya Suriyada İŞİD-ə qarşı mübarizə aparmır". "Onlar orada mötədil müxalifətçiləri, eləcə də türkmən həmvətənlərimizi bombalayırlar. Mən Bayırbucaq türkmənlərini qəbul etmişdim, onların hamsı kəndlərinin bombalandığını söylədilər. Təəssüf ki, vəziyyət belədir, lakin onlar ciddi təşkil olunmuş yalan məlumatlarla bütün dünyanı aldatmaq istəyirlər", – Türkiyə lideri vurğulayıb.

Xatırladaq ki, Rusiyanın Suriyada hərbi hava əməliyyatları ölkə prezidenti Bəşər Əsədin müvafiq müraciətindən sonra 2015-ci ilin 30 sentyabrında başlayıb.

## TARİXÇİLƏR RUSİYANI QIRĞIZLARDAN ÜZR İSTƏMƏYƏ ÇAĞIRDI

Qırğız tarixçiləri 1916-cı il hadisələrinə görə Rusiya dövlətini qırğızlardan üzr istəməyi tələb edən qətnamə imzalamağı düşünürlər. Bu barədə "1916-cı il üsyanına 100 ildən sonra baxış" adlı dəyrimi masanın gedişində məlumat verilib.

"Hazırda biz qətnamənin mətnini yazırıq. Bu qətnamə iyulda Bişkekdə keçiriləcək beynəlxalq konfransda qəbul ediləcək. Biz qətnamədə göstərmək istəyirik ki, indiki hakimiyyət Vladimir Putinin və ya Dövlət Dumasının spikeri Vladimir Narışkinin şəxsində sərt münasibətə görə qırğız xalqından üzr istəsin", – öz çıxışında Tarix institutunun direktoru Akılbek Cumanaliev bildirib.

Bu təşəbbüs dəyrimi masa iştirakçılarının heç də hamsının ürəyincə olmayıb. RF-nın Qırğısıstandakı səfirliyinin müşaviri Aleksey Mzarsulov belələrindəndir.

"Rusiya Federasiyası Sovet İttifaqının hüquqi varisidir, Sovet İttifaqı isə Qırğızıstanı xilas edib. Çarizm mütləq monarxiya kimi yalnız qırğızlarımı cəzalandırıb? O, hamını cəzalandırıb. Ruslar da əziyyət çəkiblər, onları da güllələyiblər. Axı həmişə bu cür tələblərin ardınca kompensasiya tələb olunur. Bu çox aydın məsələdir. Məgər biz Qırğızıstana azmı kömək etmişik? Son 10 ildə biz 5,8 milyard dollar humanitar yardım etmişik", – Rusiya səfirliyinin nümayəndəsi qeyd edib.

## RUSİYANIN GEOSİYASİ İŞTAHI İQTİSADİ İMKANLARINA UYĞUN DEYİL

Le Devoir yazır: Putin Rusiyası yenidən dünya əhəmiyyətli hərbi dövlətə çevrilsə də, özünün zəif iqtisadi modeli ucbatından əziyyət çəkir. Rusiya prezidenti 2016-cı ildə iqtisadiyyatın inkişafının bərpa olunacağı haqqında müntəzəm olaraq danışsa da, beynəlxalq təşkilatlar ÜDM-in yenə azalacağını proqnozlaşdırırlar. Fransız politoloqu Siril Bre Rusiyanın geostrateji gücünün onun iqtisadi inkişafı ilə uyğun olmasına şübhə etdiyini söyləyib.

Politoloq qeyd edib ki, Putinin hakimiyyət illəri Rusiyanın müəyyən qədər çiçəklənməsi ilə üst-üstə düşüb, bu da Kremlə ölkə daxilində öz hakimiyyətini möhkəmləndirməyə və hərbi modernləşdirmə proqramı qəbul etməyə imkan yaradıb.

Bre qeyd edib ki, 2000-ci illərin başlanğıcında iqtisadi inkişafın yerini geriləmə tutdu. Söhbət bundan əlavə karbohidrogen ixraca əsaslanan renta iqtisadiyyatından gedir. Bununla belə Rusiya "enerji mannasından" öz iqtisadiyyatındakı boşluğu doldurmaq üçün istifadə etmədi: İnflyasiya nəzarət altına alınmadı, korrupsiya investisiyanı qorxutdu, bank infrastrukturunun sonadək inkişaf etməməsi investisiyanın xroniki çatışmazlığını dərinləşdirdi. Politoloqun sözlərinə görə, 2000-ci illərin "qızıl onilliyi" istehsalın gücünün moderinləşdirilməsi üçün "İtirilmiş onilliyə" çevrildi.

Bre inamla söyləyib ki, axrıncı təmayül Rusiya iqtisadiyyatının zəif tərəflərini göstərir. Neftin qiymətinin üç dəfə aşağı düşməsi, neftin barrelinin 100 dollar dəyərində hesablanması ilə tərtib olunmuş dövlət büdcəsinin qeyri-reallığını aşkara çıxardı; qərbin maliyyə sanksiyaları iqtisadiyyatın qərb mallarından və kapitalından asılılığını yada saldı; kapital axını tədiyə balansını pisləşdirərək, pul qeyri-sabitliyi yaratdı ki, Mərkəzi Bank sadəcə olaraq kreditləşmənin Drakon qaydasını tətbiq etməklə onun qarşısını alır. 2016-cı ildə karbohidrogenlərin qiymətlərinin bu cür qalması və Rusiyanın Ukrayna siyasətində dəyişikliyin olmaması şəraitində Rusiya daha bir il çətinliklərlə toqquşmalı olcaq.

## KOLLEKTİVİN SEVİMLİSİ OLMAĞI BACARAN MANANA



Qəhrəmanımız Azərbaycanın füsünkar guşələrindən birində, dağlar qoyununda dünyaya gəlib. Böyük Qafqazın ətəklərində yerləşən Qax şəhərində 1959-cu ildə doğulub. Elə bu şəhərdə də böyüyüb boya-başa çatıb. Məktəb illəri Qax şəhərindəki gürcüdilli orta məktəbdə keçib. Manana Vasili qızı 1976-cı ildə həmin məktəbi uğurla bitirdikdən sonra Tiflisə ali təhsil dalınca gəlir. İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinə qəbul olunur. Universitetin şərqşünaslıq fakültəsinin tələbəsi olan Manana xanım burada İran tarixi üzrə ixtisaslaşır və bu sahə üzrə mütəxəssis kimi universitetdən ayrılır.

Qayğısız universitet illəri arxada qalır. Manana Buluğaşvili Qaxa, doğmalarının yanına qayıdır. O, Qaxda beynəlmiləl məktəbin müəllimi olur. Üç illik pedaqoji fəaliyyəti nəticəsində müəyyən təcrübə qazanır, universitet illərində qazandığı biliyi əməli olaraq tətbiq edə bilir. Bundan sonra əmək fəaliyyətini sovet dönəmində dəbdə olan texniki peşə məktəblərindən birində davam etdirib, şagirdlərinə tarixin sirlərini öyrədir.

Artıq bütün bunlar ömrün xatirə adlandırdığımız qızıl xəzinəsinə çevrilir. Manana xanım ürəyinə yatan işi bir qədər sonra tapır. Belə ki, 1991-ci ildə Qardabanidə açılan tarix diyarşünaslıq muzeyinə işə düzəlir. Sevdiyi peşə ilə bağlı bu iş onun həyatının yeni mənasına çevrilir. Muzeyin yaradılmasından keçən 25 ildən artıq vaxt ərzində Manana xanım fasiləsiz burada çalışaraq, kollektivin sevimlisinə çevrilə bilir. Bu sevgini qazanmaq o qədər də asan başa gəlmir. Həlim xasiyyəti, işgüzarlığı, əməksevərliyi, kollektivin hər bir sevincinə, dərdinə-sərinə şərik ola bilməsi ona bu uğuru qazandırır. Onun haqqında yazmaq niyyətimizi bildirəndə xasiyyətinə uyğun təvazökarlıqla, utancaq bir şəkildə kollektivdə başqa adamların daha çox buna layiq olduğunu bildirir. Orasını da sözarası söyləyim ki, Manana xanımla mənim cəmi iki-üç dəfə görüşmək imkanım olub və hər dəfə mən onun müsbət obrazının görünməyən tərəflərini müəyyənləşdirə bilmişəm. Hər dəfə onun obrazını tamamlaya bilmək üçün onda müstəsna keyfiyyətlər aşkarlamaq imkanı qazanmışam.

Qardabani tarix-diyarşünaslıq muzeyində görüşdüyümüz hər bir kəs Manana haqqında yalnız xoş sözlər söyləyir. Elə muzeyin direktoru Şaduri Şukvanidən Manana xanım barədə fikrini bildirməsini xahiş edəndə də eyni mənzərə ilə qarşılaşırıq. "Bizim Manananı deyirsiz, Bulğaşvilini? Manana gözəl insan olmaqla yanaşı, həm də əla mütəxəssisdir. İşini yaxşı bilir, ən başlıcası da gördüyü işi həvəslə yerinə yetirir. Muzeyimizdə nümayiş etdirilən hər bir eksponatı göz bəbəyi kimi qoruyur, onların hər birinin üstündə əsir", – muzeyin rəhbəri bildirir.

Muzeyin əməkdaşı, elə bu yazının ortaya çıxmasının təşəbbüskarlarından biri olan Məhəmməd İsmayılov da onun barəsində xoş sözlər söyləməkdən özünü saxlaya bilmir, söhbət əsnasında bunları deyir: "Manana kollektivimizin ən dəyərli üzvüdür. Burada işlədiyim qısa müddət ərzində mən onu həm gözəl bir insan kimi, həm də işinin mahir bilicisi olan bir mütəxəssis kimi tanımışam. Mən dəfələrlə şahidi olmuşam ki, muzeyə gələn hər bir adama Manana xanım necə qayğı ilə yanaşır, onlara muzeydə nümayiş etdirilən eksponatlar barədə həvəslə məlumat verir. Ən əsası isə bütün bunları o, böyük həvəslə, yorulmadan edir".

Manana xanımın iş yoldaşlarından olan Mzevinar Ratianidən onun haqqında fikir bildirməsini xahiş edəndə, gülümsəyərək: "Manana ən yaxşı sözlərə, tərifə layiqdir", – deyir. "Bir yerdə işlədiyimiz uzun vaxt ərzində mən Mananının yalnız yaxşı keyfiyyətlərini müşahidə etmişəm. İstənilən vəziyyətdə onun üzündən təbəssüm əskik olmur. Köməyini heç kimdən əsirgəməz, bildiyini öyrətməkdən usanmaz. Bundan başqa o, ailəsinə bağlı, uşaqlarını sevən, onların hər kiçik uğuruna belə sevinən gözəl bir anadır", – Mzevinar xanım fikrini tamamlayır. Öz tərəfimizdən əlavə edək ki, yazımızın qəhrəmanı iki övlad anasıdır. Onun bir oğlu, bir qızı var və hər ikisi də ali təhsillidir.

Yazımızın sonunda onu da vurğulayaq ki, Qardabani tarix diyarşünaslıq muzeyinin rəhbərliyi muzeyin 25 illiyi münasibətilə Manana Vasilevna Bulğaşvilini fəxri diplomla təltif edib, o, muzeyin formalaşmasında çəkdiyi zəhmətə görə pul mükafatı da alıb. Elə bu xoş xəbəri verməklə də yazımızı tamamlayırıq.

A. M. ALISOYLU

## DİMİTRİ MEDVEDEV: "ƏN PİS SSENARİYƏ HAZIR OLMALIYIQ"



Rusiya baş naziri Dmitri Medvedev neftin qiymətinin düşməsinin ölkə iqtisadiyyatının çətin duruma saldığını etiraf edib, o, hazırda durumun idarə edilə bilinəcək həddə olduğunu vurğulayıb.

Medvedev qeyd edib ki, neftin qiyməti daha da düşərsə, büdcə yenidən gözdən keçiriləcək. O, ən pis ssenariyə də hazır olmaq lazım gəldiyini açıqlayıb: "Bizim üçün ən başlıca problem insanların gəlirlərinin azalmasıdır. Biz insanları səbrli olmağa və iqtisadi canlanmanın başlamasını gözləməyə çağırmayacağıq. Həyatı daha yaxşı günlərə qədər təxirə salmaq olmaz. Sosial yardım sahəsində indiki vəziyyətə adekvat olan ən güclü tədbirlər görəcəyik".

Rusiya iqtisadiyyat naziri A. Ulyukayev neftin qiymətinin 10 il aşağı səviyyədə qalacağını proqnozlaşdırıb.

RF-nın maliyyə naziri A. Siluanov yanvarın 13-dəki çıxışında cari dövlət büdcəsi optimallaşdırılmayacağı təqdirdə, 1998-ci ildəki ağır böhranın təkrarlana biləcəyi ehtimalını səsləndirib.

## RUSİYA MƏHSULLARININ UKRAYNAYA GƏTİRİLMƏSİ QADAĞAN OLUNDU

Ukrayna nazirlər kabineti 10 yanvar 2016-cı il tarixindən Rusiya mallarının ölkəyə gətirilməsinə qadağa qoyub.

Hökumətin qərarına əsasən, qadağa 5 avqust 2016-cı il tarixinədək və ya Ukraynada istehsal olunan kənd təsərrüfatı təyiyinatlı malların, məhsul və xammalların Rusiya ərazisinə gətirilməsinə qoyulmuş gömrük qadağası ləğv edilənədək qüvvədə olacaq.

Xatırladaq ki, 1 yanvar 2016-cı il tarixindən Rusiya Federasiyası öz ərazisinə Ukrayna mallarının gətirilməsini qadağan etmişdir. Rusiya Federasiyasına kənd təsərrüfatı məhsulları, xammal və ərzaq malları gətirmək qadağan olunmuş ölkələrin siyahısına Ukraynanın daxil edilməsi haqqında müvafiq qərarı 2015-ci ilin 21 dekabrında RF-nın baş naziri Dmitri Medvedev imzalamışdır. Qadağa 5 avqust 2015-ci il tarixinədək qüvvədə qalacaq.



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

## BİR OLAQ – BİRLİK OLAQ

**İslam Dini tövhid dinidir, Allahın birliyinə dayanır. İslam Dini bu tövhid inancını yalnız iman sahəsində məhdudlaşdırmır, cəmiyyətə də yayır. Cəmiyyətin birlik və bərabərlik içində olmasını əmr edır. Birlik və bərabərlikdən ayrılan toplumların həlak olduqlarına dair misallar gətirir. Müsəlmanların qardaş olduğunu elan edir: "Ancaq möminlər qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin və Allahdan qorxun ki, mərhəmət olunasınız."** (Hucurat Surəsi - 10).

Qardaşlığın nəsil qardaşlığı, süd qardaşlığı, qan qardaşlığı və din qardaşlığı kimi növləri vardır. İslam dininin hədəflədiyi qardaşlıq da elə bu sonuncu olan din qardaşlığıdır. Bu, qan birliyindən, süd birliyindən kənar bir qardaşlıqdır. Bu qardaşlıq bir binanın kərpicləri qədər möhkəm, bir-birləri üçün lazımlı, bir-birinin tamamlayıcısıdır.

Müsəlmanların ortaq duyğu və düşüncələrini təmin edən, onları biri-birinə bağlayan qaynaq Qurani-Kərim və Peyğəmbərimizin (s.ə.s) sünnətləridir. Ona sarılan həm dünya, həm də axirət səadətini qazanacaq, ondan uzaqlaşan da həm dünya, həm də axirət səadətini itirəcəkdir. Fərdin də cəmiyyətin də qurtuluşu ona bağlıdır; Onun əmrləri ətrafında səf bağlamağa, buyruqlarına boyun əyməyə bağlıdır. Onun buyruqlarına uyğun gəlməyən müsəlman cəmiyyəti parça-parça olmağa, dağılıb yox olmağa məhkumdur. Allahın bu ayəti Kərimməsi bu mövzuda bizə xəbərdarlıq mahiyyətindədir: "Hamınız birdən Allahın ipinə (Qurani-Kərimə) sıx sarılın. Əsla aranıza ayrılıq, qeyrilik girməsinə imkan verməyin." (Ali-İmran - 103).

Müsəlman İslam qardaşlığının, birlik və bərabərliyinin bir üzvü olması etibarilə digər qardaşlarının haqq və hüququnu qorumaq məcburiyyətindədir. Müsəlman yaxşılığı əmr etmək, pislikdən də uzaqlaşdırmaqla vəzifəlidir. Bəli, birlik və bərabərlikdən danışırıq. Gəlin görək bizlər bu birlik və bərabərlik vəzifəmizi yerinə yetirə bilirikmi?

Arxada qoyduğumuz miladi təqvimin 2015-ci ili İslam aləmi üçün ağrılı-acılı keçsə də, ilin son günlərində müsəlmanların üzlərində sevinc izləri vardı. Necə də sevinməsinlər? Axı bu günlər hicri təqvimlə Rəbiül-əvvəl ayının 12-ci gününə dəng gəlirdi. O gün insanlıq aləminin şərəfi Məhəmməd Mustafanın (s.ə.s) doğum günü idi. Bu vəsilə ilə dünyanın harasında müsəlman var idisə, orada şənlik var idi. O cümlədən də ölkəmizin müxtəlif bölgələrində.

Bu həftə Türkiyə Cumhurriyyətində MÖVLUD həftəsi, İran İslam Respublikasında isə "VƏHDƏT" həftəsi olaraq qeyd edilir. Bu il də bu konfransda BGMİ-nin şeyxi Ramin İgidov və müftisi Yasin Əliyev də daxil olmaqla dünyanın təxminən 70 ölkəsindən 500-dən çox din xadimləri, alimlər, siyasətçi və yazıçılar iştirak edirdilər. Burada Vəhdətdən, birlik və bərabərlikdən çox sözlər danışıldı, çox vədlər verildi. Amma gəl gör ki, əməl olundumu? Məncə, yox. Bu yığıncaq bitər-bitməz, yenə hamı bir-birinin bostanına daş atdı. Səudiyyə baş kəsdi, İran Türkiyəni suçladı, bir neçəsi də ara qızışdırdı.

Gəlin qayıdaq Gürcüstanımıza. Bu "VƏHDƏT" həftəsi ilə bağlı burada da bir çox tədbirlər keçirildi. Bu tədbirlərin bir neçəsində mən şəxsən iştirak etdim. Düzünü desəm faydalandığım bir çox xüsuslar oldu. Burada bir çoxlarının gerçək səmimiyyətini görsəm də, bunu əfsuslar olsun ki, hamıya şamil edə bilməyəcəm. Çünki o insanların səmimiyyəti məndə şübhə yaradır. Həmin tədbirlərdə üz-üzə durub xoş sözlər eşitdiyim, müsəlmanlar qardaşdır deyən insanın sosial mediada yayımladığı görüntülər və sözlər bu insanın kimliyini üzə çıxardı.

**İnşallah, növbəti "VƏHDƏT" həftələrindəki görüşlərimiz daha səmimi, daha içdən olar. Ümid edirəm ki, o yığıncaqlarda danışılanlar o salonda qalmaz, davranışlarımızda özünü biruzə verər.**

## HÖKUMƏT 2015-Cİ İLDƏ LOBBİÇİLƏRƏ 649 000 LARİ ÖDƏYİB

İnformasiya Azadlığının İnkişafı İnstitutunun məlumatına görə, 2015-ci ildə lobbiçilik şirkətlərinin xidmətləri hökumətə 649 000 lariyə başa gəlib.

"2015-ci ilin 23 aprelində Gürcüstanın hökumət administrasiyası lobbiçilik fəaliyyəti xidməti haqqında razılaşma imzalayıb. Xüsusilə, "Pillsbury Winthrop Shaw Pittman LLP" şirkəti amerikan-gürcü münasibətlərində Gürcüstan hökumət administrasiyasına kömək etməli, Gürcüstanın NATO-ya daxil olmaq cəhdini dəstəkləməli, ABŞ hökuməti və Konqresi ilə münasibətlərdə yardım göstərməli, müvafiq tədbirlərin planlaşdırılması və təşkil olunmasına kömək etməlidir.

Müqaviləyə əsasən, bu şirkətin aylıq xidmətinin dəyəri 50 000 dollar təşkil edir. Bəhs olunan xidmətin həyata keçirilməsi üçün Gürcüstan hökumətinin ehtiyat fondundan cəmi 649 000 lari ayrılıb", – İnformasiya Azadlığının İnkişafı İnstitutunun məruzəsisində bildirilir.

## GÜRCÜSTAN THE GUARDİAN-IN SƏYAHƏT ETMƏYƏ LAYİQ ÖLKƏLƏR SİYAHISINA DÜŞÜB




Britaniyanın nüfuzlu The Guardian nəşri Gürcüstanı 2016-cı ildə məzuniyyət keçirmək üçün getməyə layiq ölkələr siyahısına daxil edib.

Top-siyahı hazırlayan Böyük Britaniyanın məşhur həftəliyi 2016-cı ildə səfər etmək, eləcə də yeniliklər görmək və ya sadəcə istirahət etmək üçün yeni istiqamətlər seçib.

"SSRİ-nin dağılmasından sonra, 25 il əvvəl Gürcüstan dağlara və göllərə macəralı yürüş üçün çox şey vəd edən yerə çevrildi", – The Guardian yazır.

Gürcüstan turistləri ucuz aviareysləri, beş, dörd və üç ulduz otelləri, gürcü şərabından dadmaq imkanı verən yenilənmiş restoran və barları, eləcə də mədəni əyləncələri ilə cəlb edir.

The Guardian-ın siyahısına müxtəlif ölkə və şəhərlər – Bordo, Dublin, Rio-De-Janeyro, Hindistan, İran, Yaponiya, Lima, Kosta-Rika, Şri-Lanka, Bosniya və başqaları düşüb.

## SƏRXOŞ VƏZİYYƏTDƏ SAXLANMIŞ VƏTƏNDAŞLAR SÜRÜCÜLÜK HÜQUQUNU BƏRPA EDƏ BİLƏCƏKLƏR

Gürcüstan parlamenti inzibati xətalar məcəlləsinə düzəlişləri müzakirə edir. Bu düzəlişlər sərxoş vəziyyətdə saxlanmış sürücülərə imkan verir ki, sürücülük hüququndan müvəqqəti məhrum etmə əvəzinə cərimə ödəsinlər.

Qanun layihəsi qəbul ediləcəyi halda belə vəziyyətə düşən vətəndaşlara üç ay müddət veriləcək və onlar bu müddət ərzində səlahiyyətli orqanlara sürücülük hüququndan məhrum etmənin 700 lari (təxminən 292 dollar) cərimə ilə əvəz olunması barədə xahişlə müraciət edə biləcəklər.

İstisna yalnız yetkinlik yaşına çatmamış sürücülərə aid ediləcək, onlara bu norma tətbiq olunmayacaq.

## GÜRCÜSTAN PEDAQOQLARI İMTAHAN VERDİLƏR

Yanvarın 11-dən pedaqoqlar və pedaqoq olmaq istəyənlər imtahan veriblər. Milli imtahanlar və qiymətləndirmə mərkəzindən bildiriblər ki, qış sessiyasında 10 000 nəfərdən artıq adam qeydiyyatdan keçib. Onlar Tbilisi və Kutaisidəki imtahan mərkəzlərində 11-13 yanvar tarixində imtahanlar veriblər.

Mərkəzin məlumatına görə, imtahanlar aşağıdakı fənlərdən ibarət olub: gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-VI siniflər); gürcü dili və ədəbiyyatı, riyaziyyat, tarix, coğrafiya, vətəndaş təhsili, fizika, kimiya və biologiya (VII-XII siniflər); gürcü dili ikinci dil kimi, ingilis dili, alman dili, fransız dili və rus dili (I-XII siniflər); tətbiqi və təsviri incəsənət, informasiya və kommunikasiya texnologiyaları.

Musiqi və idman müəllimləri imtahan qeydiyyatına yazda düşəcəklər. onlar fənlər üzrə imtahanları iyulda verə bilərlər.

## GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ KÖHNƏ PARTALAR YENİLƏRİ İLƏ ƏVƏZ OLUNUR

Təhsil və elm nazirliyinin mətbuat xidmətinin yanvarın 8-də yaydığı məlumatda bildirilir ki, Gürcüstanın dövlət məktəblərində qış tətili başa çatanadək köhnə partalar yeniləri ilə əvəzlənəcək.

Gürcüstan məktəblərində qış tətili dekabrın 30-da başlayıb, dərs prosesi yanvarın 15-də başlayır.

"Qış tətili dövründən biz qısa müddətli infrastruktur layihələrinin həyata keçirilməsi üçün səmərəli istifadə edirik. Bu gün müvafiq işlər 100 məktəbdə həyata keçirilir", – təhsil nazirinin müavini Liya Qiqauri bildirib.

Gürcüstanda cəmi 2085 dövlət məktəbi var.

Təhsil nazirliyinin elm və təhsil infrastrukturunun inkişafı agentliyi 2015-ci ildə məktəblər və texniki peşə məktəbləri üçün 126,6 minə yaxın parta alıb.

## AZYAŞLILARA FİZİKİ CƏZA VERİLMƏSİNİN YOLVERİLMƏZLİYİ HAQQINDA QANUN LAYİHƏSİ PARLAMENTƏ TƏQDİM OLUNUB



Erkən və məktəbəqədər yaşlı uşaqların tərbiyə sferasını xüsusi qanun tənzimləyəcək.

Gürcüstan parlamentinin üzvləri Eka Beseliya, Qedevan Popxadze və Otar Çrdileli ali qanunvericilik orqanına "Erkən və məktəbəqədər tərbiyə və təhsil haqqında" qanun layihəsi və 15 qanuna dəyişikliklər etməyi nəzərdə tutan müvafiq dəyişikliklər layihəsini təqdim ediblər.

Qanun layihəsində müəssisələrdə uşaqlara qarşı zorakılıq, o cümlədən də fiziki cəza, laqeydlik, təhqiredici və alçaldıcı rəftar qadağan edilir.

Uşaq üzərində zorakılığın aşkarlanması və ya belə faktlar haqqında müvafiq dövlət orqanlarını məlumatlandırmamaq qanun layihəsinə görə, qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyət müəyyən edir.

Parlament bu qanunvericilik təşəbbüsünün müzakirəsinə yaz sessiyasında başlayacaq.

# QIZIMA
## (Hekayə-məktub)



KAMURAN

Quzum, necəsən? Məni qınama, ağrın alım, bilirsən ki, əhval-ruhiyyəm pisdi. Niyə getdiyimi bəlkə də anlamırsan, və zatən, balam, yer-yer mən özümü anlamıram, mən necə səni müqəssir sayım? Övlad nifrəti çox ağırdı, körpəciyim, ona görə də oxu bu məktubu... və saxla, indi sözümün mətləbini qavramasan belə, inandırıram səni, yaşa dolduqca məni anlayacaqsan, hisslərimi duyacaqsan... həyatı a priori-sayağı yox, onu real olaraq yaşamağa başladığın zaman mənimsəyəcəksən. Saxla, kəpənəyim, təhlükəsiz bir yerdə qoru... və bir gün özünü hazır hiss etdiyində zirzəmidəki mavi sandığı taparsan, yalnız hazır olduğunda... saxlanmış məktubları oxuyarsan, sonra hərəsini öz üzərindəki ünvana yollayarsan.

Mən uzun zaman pislənən insanların doğru dediyini biləndə insanı necə soyuq tər basdığını yaxşı bilirəm. Bəzən mübhəm duyğularla aşıb-daşan lövhələrlə əhatələndiyində optik-obiyektivlik daralır və ilğım seli hər nisbətdə artır. İlğım sözünü əsla birbaşa mənayla qəbul etmə, çünki, qondarma gerçəklikdə hər ilğım yeri gələndə arzu fırtınaları yaradan həqiqət ola bilər. Arzuları daraltmaq və məqsədləri kiçiltmək insana quru-xoşbəxtlik verər, yavru keçim... kür olmaqsa cığırlar açar. Lakin, döyüşü müqəddəs qılan şərtlər var, nisbi belə olsa. Əgər vacib şəraitdə üsyankar olmamaq əzab-əziyyət gətirirsə də, əksinə, vacibliyə uyaraq kür olmaq döyüşü şən qılar. Əsgər başqadı, mənim gözəl sığırçınım, döyüşçü isə tamam başqadı; əsgər olmaq bir heç uğruna həyatını itirməkdir, döyüşçü olmaq isə bəzən ölmək, bəzən də qalib gəlməkdir. Döyüşçü yalnız sevgi adına, səadət zəmini adına, insanlıq adına, azadlıq adına, sevgi-mutluluq adına... döyüşür. Döyüşçülük təbii reaksiyadır, şüursuzluq deyil. Döyüşçü bəzən hirslənsə də, hiddəti uşaq duyğuları kimi təmiz və saf olur... Döyüşçü yaşadığı zaman qəhrəman, öldüyündə isə əfsanə olur.

Psixikam yaxşıdı, yavru qurdum, ruhum tərtəmizdir, deyilənlərə aldırma. Uşaqlığımdan bəri bildiyim bir şey var, bunu heç vaxt gizlətməmişəm: kollektivləşə bilməməyim idi qohum-əqrəbalarımı hiddətləndirən, ona görə ruhuma töhmət atılırdı... onlardan biri ola bilmirdim. İnandırıram səni, ruhum pak və sağlamdır. Hərçənd, kollektiv şüuraltım idi xəstə olan – deyirəm, lakin dərinə enəndə görürəm ki, əslində varlığımın ənginliklərində hansısa bir güc məni "şüursuzluq" adı altında kollektivləşmədən uzaq tutur, bünyəm qəbul etmir və... nə bahasına olursa olsun, yaxşı ki, də bu belədir...

Yadına düşürmü, anamgildə idik, həyətdə oturкурduq və sən də 100-ə qədər saymağı öyrəndiyindən sevinib 100-dəfə yanağıma busə qondurmuşdun. Lakin, heç 10-dəqiqə keçməmiş düşən hənganın səbəbini anlamamışdın. İnandırıram səni, mən də anlamamışdım. Məzhəkə onda idi ki, etiraz obiyekti mən idim. Bir bildiyim budur ki, mən sandığın insanların övladı deyiləm, yoxsa xala sandığım kəs niyə mənə qardaşım sandığım kəs haqqında "çünki, o, bacım oğludu" desin? Hazırda gedib analiz versək, görərik ki, atamın da, anamın da həqiqi övladıyam, lakin, hər nədənsə nəhəng ağacın bircə budağına qida yaxşı getmədiyindən cılızlaşıb və yoldan keçən birinin cəmi bircə dəfə sallaşmağı həmin budağı dibindən qoparıb. Etirazın nə olduğunu anlamaq əsas deyil hazırda, əsas olan insanları nəyin birləşdirdiyidir. Düşüncə sistemi deyil insanları birləşdirən – və zatən eyni düşüncə quruluşuna sahib iki insan tapa bilməzsən – , məni düzgün anla, göyərçinim; mənə pis təsir edən bizi birləşdirən şeyin olmamasıdır: şəfqətin, riqqətin olmamasıdır – ən azından mənə qarşı. İt belə bilmədən balasının ayağını basanda çılğına dönür, ağrıdan ulumağına dözə bilmir və balası sakitləşənədək onun ayağını yalayır. Bir-birlərinə heyvan adı qoşanların heyvanlardan öyrənəsi çox şeyi var, əzizim.

İki daşın arasında qalmaq çətindir, nə oralıq, nə də buralıq ola bilməmək qeyb etdirir insanı. Nə tənhalığıma sığınmaq istəmirdim, nə də ailəmin rəğbətini qazana bilmirdim, həmişə arada qalmışam. Bacı-qardaşınla münasibətin yaxşı olmayanda yaxın saydığın dostlara da bacı-qardaş deməkçətindir, ən azından deməyə zorlanırsan, çünki, həqiqi bacı-qardaşın sənə arxasını çevirəndə insanın özgələrə bacı-qardaş sözləriylə xitab etməsi zorlaşır. Üstəgəl, ata-anadan sarımayan sevgidən, qardaş-bacıdan yarımayan da dostluqdan vaqif olmur, duyğuları formalaşmır. Ananla da münasibətimdə ikiləşmələrim olurdu. Bəzən başımı götürüb gedirdim və darıxıb, həm də getdiyimə peşman olub qayıdırdım, lakin, bu səfər də qayıtdığıma kor-peşman, həyatıma davam edirdim. Ya insanlar çox acımasız olmuş və nifrətin əməyindən qidalanırdılar, ya da mən çox həssas idim, anlamıram. Zatən bu anlamamaqlar köksümü sıxır, nəfəsimi daraldır; bilmək və anlamamaq...

...Bir dəfə görmüşəm, hər birini yaşamışam, həftələrlə bir yatağa bağlı qalmaqdan və mütəmadi elektrikə çarpdırılmalardan sonra nə o qədər əzaba dözməyin dəyəri qalmır və nə də ondan sonra yaşamağın. Səni inandırıram, əgər o işgəncələrdən sonra psixika düzəlirsə də, sırf şüurun uyuşmasına əsasən normallaşır, daha doğrusu, normallaşdığı sanılır. Əslində baş verən tək şey elektrik və dərmanlarla uyuşan vücud və ruhun heç bir fəryadı eşitməməsidir; daxilin fəryadla dolub-daşanda isə... Çayın önünü kəsdikdə daha çox gəlir(!)...



Sanki bir tək mənim kimi xəstələr bəşəriyyət üçün təhlükə yaradır, lakin, heç kim insanları aldadanların dostluğunun xəstə olduğunu demir, cəmiyyəti ordan-ora, burdan-bura pələsəng edənlərin şüurları xəstə sayılmır, heç kim mülk üstündə bir-birlərini öldürənlərin ruhi xəstəliyini görüb, onlara elektrik verib, zehinlərini oyatmır, demir ki, torpaq kimindir ki, sən də onun üstündə savaşırsan, bircə kəs övladını döyənləri, onları atanları tutub dəlixanaya basmaz, deməz ki, bunun analıq və yaxud atalığı xəstədir, bir dəfə görməmişəm ki, dövlətdə atalıq vəzifəsini üstlənmiş kəsə küçələrdəki dilənçilərin varlığına görə dərmanlar içizdirələr, heç eşitməmişəm ki, zəyif nöqtələrini bilərək başqalarını dəli edənlərə o xələti geydirələr və əsla dünyanın, bəşəriyyətin sonunu gətirən mallar idxal-ixrac edənlərə "dəli" belə deməzlər, əksinə, bütün bu saydıqlarıma əksəriyyət mədhiyyələr söyləyər, bülbül təki cikkildəyərək alışıb-yanan və ağızlarında durub-dincəlməyən dillərinə müqavimət göstərə bilməzlər... etik qanunlara uymadığına görə, uya bilmədiyinə görə və yaxud ümumiyyətlə, anlamadığına görə isə başına min-bir oyun açırlar. Yaşaya bilmədiyim ömrün hesabını kimdən soruşum?..

Varlığım üçün üzr istəyirəm...

Əlvida, qara gözlü ceyranım!

Oxunma tarixi 23.12.2011

Anar RAFİQOĞLU
*anar.rafiqoglu@gmail.com*



# ELM ADAMLARI SIXINTILARLA BOĞUŞARKƏN, İDMANÇILAR MİLYONLAR QAZANIR

**Keçdiyimiz günlərdə bir internet saytında paylaşılan "Forbes" jurnalının hazırladığı ən çox pul qazanan məşhurlar siyahısına göz gəzdirdim. Siyahıya görə ən çox qazanan məhşurların əksəriyyəti idmançılar, müğənnilər, aktyorlar idi. Təkdə-tükdə başqa sahənin adamlarına rast gəlmək olurdu. İndi o siyahının ilk onluğunu siz dəyərli oxucularımla paylaşmaq istəyirəm. Məsələn, siyahıda birinci yerdə məşhur amerikalı boksçu Floyd Meyvezer yer alır. O, son bir il ərzində boksdan tam 300 milyon dollar qazanc əldə edib. İkinci sırada da bir digər məhşur boksçu, filippinli Menni Pakyao yer alır. Onun isə son bir ildəki qazancı 160 milyon dollar olub. Müğənni Keti Perri 135 milyon gəlirlə üçüncü, 130 milyon dollarla "One Direction" pop-qrupu dördüncü, 95 milyon dollarlıq qazancı ilə radio aparıcı, fotoqraf Hovard Stern beşinci, müğənni Hart Bruks 90 milyon dollarlıq qazancı ilə altıncı, 89 milyon dollarlıq gəliri ilə triller və dedektiv yazıçısı Ceyms Patterson yedinci, illik 80 milyon dollar qazanan aktyor Robert Dauni və müğənni Teylor Svift səkkizinci, doqquzuncu yeri 79,5 milyon dollarla futbolçu Krıştianu Ronaldu və son olaraq amerikalı aparıcı Raş Limbo 79 milyon dollarlıq qazancı ilə ilk onluqda yer alırlar.**

İlk yüzlükdə də vəziyyət fərqli deyil. Ya idmançılar, ya müğənnilər ya da aktyorlar pula pul deməyənlər siyahısında gözə çarpır. Nə gecəsini gündüzünə qatıb xəstələrə şəfa olan həkimlər, nə ömrünü təhsilə, elmə həsr edən alimlər, nə də hər kəsə ən azı əlifbanı öyrədən müəllimlər o siyahıda yer almırlar. Bu gün əksər ölkələrdə, hətta futbolun o qədər də güclü inkişaf etmədiyi Qafqazda belə, istənilən futbolçu ilə istənilən vicdanlı müəllimi, polisi, həkimi, elm adamını müqayisə etsək, futbolçuların qat-qat daha yaxşı yaşadığını görərik. Bunu bir futbolsevər olaraq üzülərək qeyd edirəm. Üzülürəm, tərəziyə qoyduqda həkimin, müəllimin, biz rahat yataq deyə gecələri min bir təhlükələrlə üzləşən polisin insanlıq adına daha böyük işlər görüb, buna baxmayaraq, çətinliklərlə yaşamaqlarına üzülürəm. Hərdən bəzi müəllimləri, həkimləri, polisləri bəzən rüşvət almaqla qınayırıq. Düzdür, nə olursa olsun, rüşvət almaq düzgün deyil, hətta cinayətdir, ancaq gəlin bir də medalın o biri üzünə baxaq. Axı, müəllim, həkim, polis, ya da insanlığa xidmət uğrunda çalışan digər sahənin insanları 300-500, ya da maksimum 600-800 larilik maaş ilə ən azı 4-5 nəfərlik bir ailəni necə dolandırsın? Rüşvət alanları varsa, əlbəttə, qınayaq, mühakimə edək, amma eyni zamanda onları rüşvət almağa vadar edənləri, sistemi də qınayaq. Niyə bu insanlar layiq olduğu əmək haqqını almırlar? Mən heç bir halal insanın yetərli maaş alacağı təqdirdə rüşvət almağı ağlına belə gətircəyini düşünmürəm. Əgər aralarında haramzadələr varsa, onlara istər boksçu Floyd Meyvezerin aldığı 300 milyon dolları verin. Yenə ağlı şeytan əməllərində olacaq. Boksçu demişkən, qısaca boksdan da yazmaq istəyirəm.

**Boks... İki insanın bir-birini yumruqlaması çoxmu vacib bir işdir? Bu işin bəşəriyyətə, insanlara nə faydası var? İdman əslində sağlamlıqdı, amma bunu döyüş növlərinə şamil etmək, məncə, düzgün deyil. Bir boksçunun başına aldığı hər zərbə beynindəki hüceyrələri məhv edir. Bu idman növü ilə məşqul olanlara, əlbəttə ki, hörmətlə yanaşıram. Hətta, özüm də hərdən boks izləməyi sevirəm. Amma bu işi milyonların, milyardların dövr etdiyi bir biznesə çevirənləri anlamıram. Bu arada, sonuncu verdiyim boks örnəyinin ölkəmizə adiyyatı yoxdu. Çünki bizdə fağır boksçular da əksər ziyalılar, şairlər, yazarlar, ağır zəhmət adamları kimi aclıq və ehtiyac içindədirlər.**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 yanvar 2016-ci il
№0015 (15)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## YUNESKO 2016-CI İLİ ŞOTA RUSTAVELİNİN YUBİLEY İLİ ELAN EDİB



2016-cı ildə XII əsrin görkəmli gürcü dövlət xadimi və şairi, “Pələng dərisi geymiş pəhləvan” epik poemasının müəllifi Şota Rustavelinin (1160 və ya 1166-1216-cı illər) 850 illik yubileyi qeyd ediləcək. Bəşəriyyət bütün dünyada şairin yubileyini müxtəlif tədbirlərlə qeyd edəcək.

Bu barədə özünün sosial şəbəkədəki səhifəsində “Rustaveli Cəmiyyəti”nin prezidenti David Şemokmedeli (Takidze) məlumat verib.

“Sizi xoş bir xəbərlə tanış etmək istəyirəm. İndiyədək bu məsələnin həlli müşkülə çevrilmişdi.

“Rustaveli Cəmiyyəti” məsələnin müsbət həll edilməsini qəti tələb etdi.

Nəhayət, Gürcüstan hökumətinin səyi nəticəsində YUNESKO 2016-cı ili Şota Rustaveli ili elan etməyi qərara alıb”, – David Şemokmedeli (Takidze) bildirib.

## FİFA-NIN YENİ REYTİNQİ AÇIQLANDI

Bu günlərdə FİFA özünün rəsmi saytında milli yığma komandaların yeni reytinq cədvəlini yerləşdirib.

Reytinqin ilk beş pilləsini müvafiq olaraq Belçika, Argentina, İspaniya, Almaniya və Çili yığmaları tutur. Türkiyə yığması 933 balla reytinqdə 21-ci, aktivində 895 bal olan Rusiya isə 24-cü pillədə qərarlaşıb. İran komandası 672 ballıq nəticə ilə 43-cü pillə ilə kifayətlənib.

Azərbaycan yığması 296 ballıq göstərici ilə 116-cı yerdə qərarlaşa bilib. Aktivində 294 bal olan Türkmənistan yığması 117-ci pillədə özünə yer edib. Gürcüstanın milli futbolçuları 286 balla reytinqin 120-ci, Ermənistan futbolçuları isə 285 balla 121-ci yerdə qərarlaşıb. Qazaxıstan yığması 266 balla reytinq cədvəlinin 132-ci pilləsinə sahib olub.

## ABŞ-DA POWERBALL LOTEREYASININ CEKPOTU 950 MİLYON DOLLARA ÇATDI

Yanvarın 9-da ABŞ-ın PowerBall lotereyasının məbləği 900 milyon dollardan artıq olan cekpotunu udmaq lotereyanın bu tirajında da heç kəsə müyəssər olmayıb. Ölkə tarixində ilk dəfə olaraq lotereyanın cekpotu 950 milyon dollara çatıb.

Euronews xəbər verir ki, qiyməti 2 dollar olan lotereya bileti Birləşmiş Ştatların bütün ərazisində satılır. Uduşa düşən bütün altı nömrəni ardıcıllıqla düzgün tapmaq ehtimalı 292 milyonda bir baş verə bilər. Bu isə o deməkdir ki, orta amerikalının ABŞ prezidenti olmaq şansı PowerBall-ın cekpotunu udmaqdan 25 dəfə çoxdur.

Qəzetimiz çapa hazırlanarkən, artıq məbləği 1,5 milyard dollara çatmış PowerBall lotereyasının cekpotu udulub.

## “DONUZ QRİPİ” VİRUSUNDAN NECƏ QORUNMAQ LAZIMDIR?

Qışın gəlməsi ilə bir çox ölkələrdə, eləcə də Türkiyədə və Ermənistanda “Donuz qripi” (H1N1) virusunun yayılmasını nəzərə alaraq, virusdan qorunmağın yollarından bəhs edən bu kiçik yazını oxucularımıza təqdim etməyi məqsədəuyğun hesab etdik.

"Donuz qripi"nə, eləcə də qripin başqa formalarına yoluxmamaq üçün xəstə insanla danışarkən maskadan istifadə olunmalı və insanların sıx olduğu yerlərdən uzaq durulmalıdır.

Bu barədə Türkiyənin yoluxucu xəstəliklər üzrə mütəxəssisi Əli Atalar danışıb.

O bildirib ki, qış fəslində insanlar bədən temperaturuna diqqət etməlidirlər: "Qış fəslində insanlar daha çox soyuqdəymədən qrip xəstəliyinə yoluxurlar. Əgər bədən temperaturuna diqqət edilməzsə, bir çox xəstəliklər yarana bilər. "Donuz qripi" temperaturun yüksəlməsi, titrəmə, mədənin bulanması və qusmaya səbəb olan quru öskürək kimi hallarla özünü göstərir. Xəstə insan digər şəxslə danışdığı zaman ətrafa tüpürcək çıxır və tüpürcək dalğaları çox sürətlə yayılır.

Ona görə də qripə yoluxmuş insan maskadan istifadə etməli və ya danışanda ağzını bağlamalıdır. Qripin formasından asılı olmayaraq, xəstəliyə yoluxan adam izdihamın olduğu yerlərdən qaçmalıdır, çünki özü mikrob yaydığı kimi, ətrafdakı insanlarda olan mikrobları da qəbul edir".

Əli Atalar bildirib ki, qrip xəstəliyi zamanı viruslar bir həftə boyunca fəal şəkildə yayıldığı üçün xəstələnmiş insanlar bir həftə evdə müalicə olunmalı, daha iki gün istirahət etməlidirlər. Xəstə uşaqlar 8-9 gün boyunca məktəbə buraxılmamalıdırlar.

"Donuz qripi"nə ilk dəfə 2008-ci ilin aprelində Meksikada yaşayan beş yaşlı oğlan Edqar Ernandes donuz ferması yaxınlığında yoluxub.

Həmin vaxtdan dünyanın 135 ölkəsində 134 mindən çox adam bu qripə tutulub ki, onların da 700 nəfərdən çoxu dünyasını dəyişib.

## NƏZƏRLİ KƏNDİNDƏ “FİTNES KLUB” FƏALİYYƏTƏ BAŞLADI



Yanvarın 11-də Qardabani rayonunun Nəzərli kəndində müasir standartlara cavab verən yeni idman salonunun açılışı olub. Nəzərli kəndinin mərkəzində yerləşən salonda müasir avadanlıqlar quraşdırılıb.

Sağlam, fiziki cəhətdən qüsursuz olmaq istəyənlər, gələcəyini idmanda görən uşaq və yeniyetmələr, artıq çəkidən əziyyət çəkənlər, bu və ya digər xəstəlik nəticəsində sağlamlığını müəyyən qədər itirmiş şəxslər, gündəlik həyat və məişət qayğılarının sıxıntısından depressiyaya düşmüş adamlar yeni yaradılmış “Fitnes klub”un xidmətlərindən istifadə edə bilərlər.

Qeyd edək ki, idman sahəsində müəyyən uğurlar qazanmış, ali təhsilli mütəxəssis Cəlal Qasımov bu idman mərkəzinə gələnlərə bu və ya digər məsləhətlər verəcək, mərkəzin xidmətindən istifadə edənlər məhz onun göstərişləri əsasında trenajyor avadanlıqlarından istifadə etmək qaydalarını öyrənəcəklər.

Cəlal Qasımovun verdiyi məlumata görə, burada hər bir şəxs həftədə üç dəfə məşq edə biləcək. “Özəl olaraq yaradılmış idman mərkəzində 10 yaşından 50 yaşınadək arzulayan istənilən şəxs məşğul ola bilər. Müştərilərimiz üçün müəssisəmizdə hər cür şərait yaradılıb. Onların rahatlığı üçün burada keyfiyyətli avadanlıqlarla yanaşı, soyunub-geyinmə otaqları, daim isti və soyuq suyu olan duşxanalar fəaliyyət göstərir. Sağlamlığının qədrini bilən hər kəsi tanışlıq üçün salonumuza dəvət edirik. İnanırıq ki, müştərilərimiz kəndimizdə ilk olan müəssisəmizin xidmətlərindən razı qalacaqlar”, – məşqçi əlavə edib.

Onu da bildirək ki, “Fitnes klub” Ramin Abdullayevin təşəbbüsü və maliyyə dəstəyi ilə açılıb.

## DÜNYANIN ƏN VARLI 10 FUTBOLÇUSU MÜƏYYƏN OLUNUB

Bu sırada olan futbolçuların ara transfer dövründə klublarından ayrılmayacağı və qazanclarının eyni qalacağı da müəyyən olunub.

Beynəlxalq idman tədqiqatları mərkəzinin (CİES) apardığı bir araşdırma nəticəsində 2015-ci ilin ən varlı 10 futbolçusu müəyyənləşdirilib. Onluğa düşən futbolçular bunlardır:

Lionel Messi 250,7 milyon avro, Neymar 152,7 milyon avro, Eden Hazard 130,5 milyon avro, Kriştiano Ronaldo 114 milyon avro, Harry Kane 91,3 milyon avro, Rahim Sterlinq 89,8 milyon avro, Antoine Griezmann 88,3 milyon avro, Luis Suarez 86,3 milyon avro, Serxio Aquero 82,1 milyon avro, Aleksis Sançez 81,9 milyon avro.

## 2016-CI İLİN GÜNƏŞ TUTULMALARININ VAXTI BƏLLİ OLUB



Xarici mətbuatın yaydığı xəbərə görə, Yer kürəsində martın 8-i, mayın 9-u və sentyabrın 1-də günəş tutulması hadisəsi baş verəcək.

Məlumata görə, martın 8-də və sentyabrın 1-də tam günəş tutulması hadisəsi olacaq, mayın 9-da isə Merkuri planeti Günəş diskinin üstündən keçəcək.

Merkurinin Günəşin üzərindən günün birinci yarsında keçəcəyi bildirilir. Bu hadisəni Yer kürəsindən yalnız xüsusi avadanlıqlarla müşahidə etmək mümkün olacaq. Mayın 9-da olacaq günəş tutulması hadisəsi 7 saat 30 dəqiqə davam edəcək.

Martın 8-9-da baş verəcək günəş tutulması təbiət hadisəsini insanlar əsasən İndoneziya və Havay adaları ərazisində müşahidə edə biləcəklər. Sentyabrın 1-də olacaq günəş tutulması isə Mərkəzi Afrika və Madaqaskardan tam görünəcək.

2016-ci ildə Yer və Ayın mərkəzləri arasındakı ən az məsafə (357 448 km) noyabrın 14-də olacaq. Bu zaman Ay çox böyük və aydın görünəcək. Digər "Super ay" hadisələri sentyabrın 16-sı, oktyabrın 16-sı, dekabrın 14-də baş verəcək, amma bu günlərdə Ay Yer kürəsinə nisbətən yaxınlaşacaq.

Məlumatda həmçinin qeyd olunub ki, bu il qanlı ay tutulması hadisəsi gözlənilmir.

Təsisçi:
“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.